Ədəbiyyat qəzeti

26 sentyabr 2020-ci il 



**Gülbəniz BABAYEVA**

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*

# Çağdaş satiranın mövzu və ideya qaynaqları

2019-cu ilin ədəbi mənzərəsində satiranın da özünəməxsus yeri vardır. Tahir Taisoğlunun "Çörəyin buynuzu", "Fərq" (19 yanvar 2019), "Qiymətli bıçaq", "Tamah ovçusu" (20 aprel 2019), "Qonşu ittihamı", "Doktor Nəriman", "Hərənin bir ömrü" (21 sentyabr 2019), Atababa İsmayıloğlunun "Qırmızı işıq" yazıları dərc olunub.

Şair Ayaz Arabaçının "Uzaqlar yaxın olsa... şeirlər kitabında müəllifin müxtəlif mövzuda qələmə aldığı dərin ictimai-fəlsəfi, iqtisadi-siyasi sosial, ədəbi-mədəni reallıqları əks etdirən satirik şeirləri yer almışdır. Şairin əsasən heca vəznində qələmə aldığı şeirlərində milli təəssübkeşlik, ana vətənə məhəbbət, Qarabağ dərdi, tarixi keçmişə qayıdış, insanların hər gün üzləşdikləri sosial qayğı və problemlər, təlim-tərbiyə məsələləri, mənəvi-əxlaqi dəyərlərin qorunması kimi önəmli məsələlər ön plana çəkilir və satirik tərzdə, metaforik şəkildə geniş oxucu auditoriyasına çatdırılır.

Tahir Taisoğlunun satirik şeirlərində təbiətlə cəmiyyətin harmoniyasından yaranan fəlsəfi fikir yükünün çəkisi ağırdır. Şairin "Filankəsin çörəyinin buynuzu var (Anamın sözü)" adlı müdrik, əsrlərin sınağından çıxmış deyimi ilə qələmə aldığı "Çörəyin buynuzu" şeiri haqq söylədiyi üçün dili kəsilən anlamını özündə ehtiva edən ibrətamiz və hikmətli bir həyat təcrübəsinə söykənən maraqlı poeziya nümunəsidir.

Şair Əlisalam Bağırovun "Satirik şeirlər" kitabı çapdan çıxmışdır.

Ə.Bağırovun satiralarında M.Ə.Sabirlə yanaşı, "Kirpi" jurnalının əsas yaradıcılarından olan Rüfət Əhmədzadənin də satirik ruhu, ifadə tərzi duyulur.

Ə.Bağırovun "Pulsuz kişi", "Asan yolla pul qazanım", "Tut nəbzini müştərinin", "İşsizlik baş alıb gedir", "Qaz kəsilir", "Qul bazarı", "Toylar vardı tar-kamanla", "Xalqın güzəranıyla oynama", "Meylini sal alverə" və başqa satiralarında insanların sosial vəziyyəti, ağır yaşam tərzi, qayğı və problemlərlə üzləşməsi kimi məsələlər, eyni zamanda onları aldadanlar, pulunu mənimsəyən möhtəkirlər, işbazlar, ticarət dəllalları ifşa olunur.

Yazıçı-publisist Fazil Güneyin 2019-cu ildə çapdan çıxmış "Hər daşın altında bir tarix batır" kitabında 36 felyetonu və 35 pamfleti yer almışdır. Azərbaycan ədəbi və ictimai fikrində misilsiz xidmətləri olan dahi yazıçılarımızın mövzu, ideya, dil və sənətkarlıq bacarığından məharətlə yararlanan Fazil Güneyin publisistikanın aparıcı janrlarında qələmə aldığı felyeton və pamfletlərində həm yaşadığımız cəmiyyətin aktual problemləri, nöqsan və çatışmazlıqları açılıb göstərilir, həm də dünyada gedən mühüm qlobal hadisələrə Azərbaycan yazarı rakursundan münasibət bildirilir.

2019-cu ildə "Ədəbiyyat qəzeti"ndə maraqlı satirik hekayələr dərc edilmişdir. Vaqif İsaqoğlunun "Molla Qara" (20 iyul, 2019), Murad Köhnəqalanın "Burjua ilə toqquşma" (2 fevral 2019) Həcərin "Dəli Güldəstə" (21 noyabr 2019), Kamran Nəzirlinin "İkinci nəfəs" novellası (23 dekabr 2019),Xeyrəddin Qocanın "Elan", "Poçt qutusu", "Cəhənnəm istəyən yoxdur...", "Demokratiya", "Nə qədər otlayasan?", "İki qadının söhbəti", "Fikrini dəyişdirdi", "Vəzifə şirin şey imiş" felyetonları (28 dekabr 2019)ictimai və sosial həyatımızdakı bəlaları, mənfilikləri, cəmiyyətdə baş verən hadisələrin əsl kökünün haradan qaynaqlandığını göstərən satirik nəsr nümunələridir.

Yazıçı Həcərin "Dəli Güldəstə" hekayəsi həm incə, zərif yumoru, həm də satirik eyhamlarla yüklənmiş dili və üslubu ilə diqqəti cəlb edir.

Hər il olduğu kimi, keçən ilin ədəbi mənzərəsində Xeyrəddin Qocanın satirik felyetonları da yer almışdır. Yazıçının felyetonlarında mollanəsrəddinçilərin yaradıcılığına xas olan məna və məzmun dərinliyi, ideya zənginliyi, yığcamlıq, lakoniklik diqqəti cəlb edir.

Murad Köhnəqalanın "Burjua ilə toqquşma" satirik hekayəsi harınlaşmış varlı bir insanla yoxsul insanın dialoqu əsasında qurulub.

"Ədəbiyyat qəzeti"ndə Kamran Nəzirlinin "İkinci nəfəs" adlı novellası çap edilmişdir. Əsər ailə-məişət mövzusunda qələmə alınmışdır.

2019-cu ildə çap edilən yeganə dram əsəri Vüqar Əhmədin birpərdəli "Dil pəhləvanı" (Moderator.az, 25 oktyabr, 2019) satirik pyesidir.

Əsərin uğurlu, müvəffəqiyyətli bədii həlli hər bir azərbaycanlıya böyük ibrət dərsi verir, yurd və vətən naminə birliyə səsləniş təlqin edir.

Ümumiyyətlə, 2019-cu ilin ədəbi mənzərəsində satirik poeziya yenə aparıcıdır. Bu, özünü həm ayrı-ayrı müəlliflərin il ərzində çap olunmuş satiralarında, həm də dövri mətbuatda dərc edilən əsərlərdə göstərir. Satirik hekayə, novella, felyeton, pamflet janrlarını özündə ehtiva edən nəsr əsərləri ikinci yerdə qərarlaşıb. Dramaturgiyada isə satirik mövzulu əsərlərə az təsadüf olunur. Vüqar Əhmədin "Dil pəhləvanı" birpərdəli pyesindən başqa demək olar ki, bu janrda əsərə təsadüf edilmir.